ədalət 2019.- 15 avqust.- S.3.

# İNSANLARA SEVİNC BƏXŞ ETMƏK...



**...Bütün sahələrdə belədir: yüksəliş, uğurlu fəaliyyətin nəticələri həmişə xoş əhval-ruhiyyə yaradır, insanlara sevinc bəxş edir. Cənab Prezidentimizin rəhbərliyi ilə bu gün qazanılan nailiyyətlər ölkəmizdə məhz belə bir ovqat yaratmışdır. Həyata keçirilən sosial-iqtisadi tədbirlər, mədəni inkişaf xalqın inam və etimadını daha da möhkəmləndirir, daha xoş gələcəyə ümidləndirir. Özünəməxsus xüsusiyyətləri ilə fərqlənən Göyçay rayonunda da belədir. Bütün istiqamətlərdə həssaslıqla məsuliyyət tələb olunur. Hər kəs üzərinə düşən vəzifənin rayon üçün, bütövlükdə respublika üçün əhəmiyyətini duymağa, öz töhfəsini verməyə çalışır. Hərdən neqativ hallara da rast gəlinir. Belədə təbii ki, barışmaz mövqe seçilir və günahkarlar ciddi cəzalanır.**

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə elə ilk vaxtlardan əhali ilə yerlərdə görüşlərə, söhbətlərə xüsusi həssaslıqla yanaşır. Çünki göründüyü kimi bu tədbirlərin əksəriyyəti faydalı nəticələrə yönəlir və sakinləri razı salır.

Bütün gündəlik fəaliyyətlə, rayon mərkəzindəki yeniliklərlə və perspektivlərlə bərabər kəndlərin sosial-iqtisadi və mədəni inkişafı da həmişə ön plandadır.

Cənab Prezidentin görüşlərinin birində söylədiyi kimi dövlət təkcə iri şəhər və qəsəbələrin, rayon mərkəzlərinin abadlığı və müasirləşməsi ilə deyil, ölkəboyu bütün kəndlərin, hətta ən ucqar kəndlərin belə sosial-mədəni inkişafı ilə daim məşğuldur və bu mühüm tədbirlər həmişə daha yüksək səviyyədə davam edəcəkdir...

Ölkə rəhbərliyinin bu uzaqgörən və xoş arzulara qanad verən siyasəti, xalqına hədsiz sevgi ilə yanaşması əlbəttə ki, respublikanın əksər bölgələrində öz əksini tapır. Göyçay rayonunda da




kəndlərin sosial-iqtisadi və mədəni yüksəlişi müntəzəmliklə diqqət mərkəzindədir. Rayon rəhbərliyinin intensiv səy və fəaliyyəti öz bəhrələrini verməkdədir. Arzu və istəklər həyata keçincə camaat Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, dövlətimizə, eləcə də rayon rəhbərliyinə xüsusi minnətdarlıq edir, hər kəs üzərinə düşən vəzifəni vətənpərvərlik coşqusu ilə yerinə yetirməyə çalışır.

...Təbii ki, Göyçay şəhəri bu cür yanaşmalarla daha da gözəlləşir və müasirləşir. Zaman ötdükcə modernləşmənin simmetrik xarakter alması onun şəhər düzənini, şəhər aurasını daha səciyyəvi istiqamətə yönəldir. Şikayətlənirlər ki, bəzən başçısını kabinetində tapa bilmirlər. M.Səlimzadə hər gün hər hansı bir kəndə də getsə, mütləq şəhərin ayrı-ayrı yerlərinə də baş çəkir, görülən işlərlə şəxsən maraqlanır, bəzən yaranmış problemi yerindəcə həll etməyə çalışır. Həm də rayon rəhbərinin icra hakimiyyəti aparatında məlumdur ki, ayrıca qəbul günləri də mövcuddur - daha yaxından görüş və təklif, lap şikayət olsa belə həmin günlər seçilməlidir. Belə həftəlik qəbullar bəzən fasiləsiz olaraq saatlarla davam edir. Ən vacib olan məsələlər isə rayonun gündəlik həyat ritminə qoşulub onu effektiv şəkildə idarə etməkdir.

Bu günlərdə Göyçayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışından irəli gələn vəzifələr barədə iclas keçirilmişdir. Rayon İcra Hakimiyyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışından irəli gələn vəzifələrə və yanvar-iyul aylarında Göyçay rayonunda da sosial-iqtisadi inkişafına dair tapşırıqların yerinə yetirilməsinə həsr olunmuş iclas keçirilmişdir. İclasda rayonun idarə, müəssisə və təşkilatlarının, yerli icra və bələdiyyə orqanlarının rəhbərləri, rayon ictimaiyyəti və ziyalılarının nümayəndələri iştirak edirdilər.

İclası giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışında qarşıya qoyulmuş vəzifələrin icrası hər birimizdən yüksək məsuliyyət tələb edir. Heç şübhə yoxdur ki, rayonun müəssisə və təşkilat rəhbərləri, yerli icra və bələdiyyə orqanları sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə Ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilmişdir. Müşavirədə ölkənin makro iqtisadi nailiyyətləri ətraflı nəzərdən keçirildi, qazanılan uğurlar və prespektivlər qeyd olundu. Dövlət başçısı müşavirədəki çıxışında bildirdi ki, qeyri-neft sektorunda aparılan islahatlar, həyata keçirilən nəhəng investisiya tutumu sahələr bu ilin 6 ayı ərzində rekord göstəricilərə nail olmağa imkan vermişdir. Cari ilin 6 ayı ərzində iqtisadiyyatın 2,4%, qeyri-neft sektorun 3,2%, qeyri neft sənayesinin isə 15,4% artması uzun illər reallaşdırılan aqrar islahatların gözlənilən nəticəsidir. Yanvar-iyul aylarında valyuta ehtiyatları 4 milyard artaraq 49 milyard dollara yüksəlib. İqtisadiyyata 6 milyard dollardan çox sərmayə qoyulub. Əhalinin həyat səviyyəsi xeyli yaxşılaşıb, gəlirləri 6,6% artıb, minimum əməkhaqqı 150 manatdan 250 manata, pensiya 116 manatdan 200 manata çatdırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb. Müşavirədə dövlət başçısı bir daha islahatlara götürülən səmtin dəyişməyəcəyini bəyan etdi, ölkənin innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf edəcəyini, bu ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələrin icra ediləcəyini bildirdi.

Sonra qeyd etmişdir ki, 2019-cu ilin ötən dövrü ərzində Göyçay rayonunda da sosial-iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

İqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi keçən ilin müvafiq dövrünə nisbətən 25,7 % artaraq 190,3 milyon manat olmuşdur.

Rayonun sənaye müəssisələri tərəfindən 21,6 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. 2018-ci ilin birinci yarısı ilə müqayisədə sənaye məhsulu 11,3 milyon manat və ya 2 dəfə artmışdır.

Cari ilin məhsulu üçün 22903,6 hektar sahədə kənd təsərrüfatı bitkilərinin əkini aparılmışdır ki, bu da ötən ilə nisbətən 3,8% çoxdur. Taxıl biçini optimal müddətlərdə başa çatdırılmış, 47625 ton məhsul toplanmışdır ki, bu da ötən ilə nisbətən 47989,5 ton və ya 12,5 % artıqdır. Taxılın məhsuldarlığı 1,8 sentner artaraq, 30,8 sentner olmuşdur. Rayonda əsas kənd təsərrüfatı sahələrindən olan baramaçılığın inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilmiş, cari mövsümdə rayon kümdarları tərəfindən 16557 kq barama istehsal edilmişdir ki, bu da 2016-cı ilə nisbətən 15418 kq və ya 14,5 dəfə çoxdur. Baramaçılığın yem bazasının yaxşılaşdırılması istiqamətində son 3 ildə əkilmiş 384,6, o cümlədən Çin Xalq Respublikasından gətirilmiş 278 min ədəd tut tinginin becərilməsi, mövcud tut ağaclarının budanması işləri davam etdirilmişdir. Yanvar-iyul aylarında rayonda 75,5 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 12,4% çoxdur. 2019-cu ilin yanvar-iyul aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 45 milyon manat və ya keçən ilin müvafiq dövrünə nisbətən 6,3 dəfə çox investisiya yönəldilmişdir.

Hesabat dövründə əhalinin həyat səviyyəsi xeyli yaxşılaşmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,1%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 4,4% artmışdır.

Ötən müddət ərzində rayon ərazisində tikinti, abadlıq və quruculuq sahəsində xeyli işlər görülmüşdür. Əli Kərim adına parkda və Şəhidlər Xiyabanında əsaslı yenidən qurma işləri tam başa çatdırılmış, Şəhidlər Xiyabanında Xocalı faciəsi və 1918-ci ildə soyqırım zamanı həlak olanların xatirə abidələri ucaldılmışdır. Heydər Əliyev parkının ərazisində inşa edilən bayraq muzeyinin tikintisi başa çatdırılmışdır. Şəhərin küçə, dalan və çoxmənzilli yaşayış binalarının həyətlərinə 12 min kv.m. yeni asfalt örtüyü salınmışdır.




Rayon əhalisinə kənd təsərrüfatı məhsullarının satışında lazımi qayda yaradılması üçün tədbirlər davam etdirilmiş, şəhərin Mehdi Hüseynzadə küçəsində kənd təsərrüfatı məhsullarının pərakəndə satış bazarının bütün ərazisinə asfalt örtüyü vurulmuş, burada həm alıcılar, həm də kənd təsərrüfatı məhsulları satanlar üçün normal şərait yaradılmışdır. Bildiyiniz kimi Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında növbəti beş il ərzində Göyçay rayonunda qeyri-neft sektorunun, yol təsərrüfatı və nəqliyyatın inkişafı kommunal və rabitə xidmətlərinin yaxşılaşdırılması, meliorasiya və irriqasiya tədbirləri, əhalinin təhlükəsizliyinin qorunması, mənzil təsərrüfat və abadlıq-quruculuq işləri, sosial müdafiənin gücləndirilməsi və sosial infrastrukturun yaxşılaşdırılması ilə bağlı 16 tədbir müəyyənləşdirilmiş və onların icrasına başlanılmışdır. Rayon ərazisində yol infrastrukturun təkmilləşdirilməsi, kəndlərarası avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmiri istiqamətində tədbirlər davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin "Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncamına uyğun olaraq ümumi uzunluğu 7,5 km olan yolda əsaslı təmir işləri başa çatdırılmaq üzrədir. Məktəb və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və əsaslı təmiri istiqamətində müəyyən tədbirlər həyata keçirilir. Dövlət Proqramına müvafiq olaraq Ləkçilpaq kənd 1 nömrəli və Çaxırlı kənd tam orta məktəblərinin əsaslı təmiri işlərinə başlanılmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Göyçay şəhərində və Qarabaqqal kəndində 40 yerlik uşaq bağçaları, rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Müskürlü kəndində 40 yerlik uşaq bağçası, tibb məntəqəsi, kitabxana, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik və kənd bələdiyyəsi üçün otaqları əhatə edən inzibati binalar kompleksi inşa edilir. Ölkə Prezidentinin tapşırığına əsasən Göyçay çayında sel və daşqın təhlükəsinin və qəza vəziyyətinin aradan qaldırılması məqsədi ilə ötən ilin avqust ayından başlamış tikinti işləri də davam etdirilir.



Rayon ərazisində məskunlaşmış məcburi köçkün ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədi ilə cari ildə tikintisinə başlanılmış 80 mənzilli yaşayış binasında son tamamlama işləri aparılır.

Rayon əhalisinin içməli su, elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması sahəsində tədbirlər davam etdirilir. Rayonun Mollahacılı kəndinin təbii qazla təminatının bərpası işləri başa çatdırılmaq üzrədir.

**Sonda müzakirəyə çıxarılmış məsələ ilə əlaqədar müvafiq qərar qəbul edilmişdir.**



**Məzahir ƏHMƏDZADƏ**